## Yeni tamaşalar

❐ ***Xəbər verildiyi kimi, Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrının truppası tanınmış şair-dramaturq Hidayət Orucovun "İrəvanda xal qalmadı" əsəri əsasında hazırlanmış eyniadlı lirik- psixoloji pyesin ilk tamaşasını bu yaxınlarda Akademik Milli Dram Teatrının səhnəsində paytaxt tamaşaçılarına təqdim etmişdir.***

# "İrəvanda xal qalmadı"

***İrəvan Dövlət Azərbaycan Dram Teatrının yaradıcı kollektivi yeni tamaşasını ikinci dəfə Akademik Milli Dram Teatrının səhnəsinə çıxardı***

Azərbaycanın tarixi şəhəri olan İrəvanda yaşayan soydaşlarımızın ötən əsrin 80-ci illərində üzləşdikləri açıq- gizli erməni basqılarının bədii ümumiləşdirməsini səhnədə canlandıran yeni tamaşa ilk təqdimatdan teatrsevərlərin böyük marağına səbəb olmuşdur. Elə buna görə də iki həftə sonra milli teatrda ziyalılar və sənətsevərlər üçün müəllifin iştirakı ilə pyesin təkrar tamaşası təşkil olunmuşdu.

Tamaşadan əvvəl hazırda ölkəmizin Bişkekdə səfiri olan yazıçı və ictimai xadim Hidayətin Bakıda olmasından istifadə edən sənət biliciləri kluar söhbətlərində ona yaxınlaşıb Qərbi Azərbaycanda ata- baba torpaqlarında yaşayan həmvətənlərimizi saxta dostluq-qardaşlıq pərdəsi arxasında iyrənc repressiya və deportasiya siyasətinə məruz qoymuş, nəticədə, iki qonşu xalqı illərdən bəri düşmənçilik və sonu görünməyən müharibə girdabına salmış erməni millətçiliyinin tarixi köklərini və davamlı gedişini açıb göstərən təsirli əsər yaratdığına görə müəllifi səmimi təbrik edir, ona yeni sənət uğurları arzulayırdılar.

Sonra salonun işıqları öləzidi, vahimə saçan musiqi, qorxunc ultıların sədaları altında qara həyulələr səhnənin qaranlıq tuneli andıran dərinliyindən kabus kimi kükrədi, ətrafı bürüdü. Xeyiri, İşığı,dincliyi təhdid edən bu qaragürühun vahiməli, üşəndirici oyununun məramı çox keçmədi ki, aşkarlandı. Yeni doğulan dığanı xaç suyuna salan hay- qriqorian icması erməni uşağın gələcək taleyini "türk sənin düşmənindir!" zəhəri ilə mayalandırdılar...

Bu rəmzi- bədii girişlə başlayan İrəvan gerçəkləri pyes müəllifinin "Dincərlik" adlandırdığı istirahət guşəsində davam edir. Zahirən iki xalqın iç-içə yaşamağa məhkum olduğu bu mühitdə hər şey soydaşlarımızın sıxışdırılmasına, bezdirilməsinə yönəlib.Adi milis işçisindən tutmuş, Ermənistan Yazıçılar İttifaqının sədrinə, yüksək vəzifəli məmura qədər ermənilərin hamısı xaç suyuna çəkilərkən qulağına üfürülmüş həmin şər ruhu təcəssüm etdirir, qarşısına keçən bütün azərbaycanlıları didib-parçalamaq təşnəliyini sərgiləyirlər.

Belə bir dözülməz ab-havada soydaşlarımızın öz haqlarını qorumaq mübarizəsinin önündə gedən yazıçı Sultan Oğuzun torpaqlarımıza göz dikmiş erməni təcavüzkarlarının yalanlarına qarşı barışmaz mübarizəsi düşmənləri getdikcə daha çox narahat edir. Vaxtilə taleyinə erməni ləkəsi düşmüş yazıçı onları daha yaxşı tanıdığından düşmənin gizli niyyətlərini





də soydaşlarımızın hamısından əvvəl duyub- anlayır: "Bunların qəsdi bizi ata-baba torpaqlarımızdan qovub qıxartmaqdır". Elə buna görə də erməni zülmünün başında duranlar Sultan Oğuzu hədəfə alırlar. Yazıçını bu odlu həlqədən çıxarmaq istəyənlərə onun cavabı qəti olur: "Mən doğma torpağımı qoyub heç yana getməyəcəyəm, bu əclafların qrşısından geri çəkilməyəcəyəm".

Azərbaycanlı yazıçının tarixi gerçəyi əks etdirən "Yurd" əsərinin erməni yalanlarını özündə cəmləyən "Torpaq" kitabı ilə mübarizədə Moskvada dövlət mükafatı alması, sonda həqiqətin qalib gəlməsi kinli düşməni zorakılığa, qan tökməyə məcbur edir. İrəvana, şər yuvasına qaçıb sığınmış qatı cinayətkarı zərərsizləşdirməyə gəlmiş azərbaycanlı prokuror müavininə açılan atəş ilə müharibəyə qapı açılır.

Əsərin yekununda öz kinli və qanlı əməllərinin qurbanı olan erməni qaragüruhundakılar Haqq dərgahından açılan atəşlərlə sonadək gəbərir, xaç suyu mərasiminə gətirilmiş sonuncu dığanı isə sonuncu erməni kimi zaman- zaman "türk sənin düşmənindir!" adlandırılan soydaşlarımız xilas edib qucaqlarına alırlar. Finalda soydaşlarımızın erməni oxlarına düçar olmuş nakam məhəbbətlərinə qapı açılır. İnsanlıq və onun ən ali duyğusu olan



məhəbbət qalib gəlir.

Məlumat üçün bildirək ki, əsərə onun məzmunundan doğan çevik, bir az da sərt quruluş vermiş gənc rejissor Nicat Mirzəzadə müsiqi tərtibatını da öz üzərinə götürərək xəyanətin və ona qalib gələn məhəbbətin ziddiyyətini səs effektlərinin və musiqinin müşayiəti ilə dərindən duydurmağa nail olmuşdur. Aktyorlardan Əjdər Zeynalov (yazıçı Sultan Oğuz), Könül Əbilova (elmi işçi Firəngiz), Ceyhun Əliyev (prokuror müavini Emil), Şəbnəm Cəbrayılova (Sona) sevən və mübarizə aparan soydaşlarımızın obrazlarını pyesin üslubuna uyğun olaraq lirik-psixoloji səpkidə məharətlə yaradırlar. Erməni obrazları da onların xislətinə uyğun canlandırılır.

Xalqımızın yurd həsrətindən yaranan, qəlb yarasının göynərtisini ifadə edən "İrəvanda xal qalmadı" mahnısı tamaşa boyu tarixi itkilərimizin əks-sədası kimi səslənir, yaddaşımızda irəvanlı günlərin timsalı olaraq silinməz iz qoyur.

İrəvanlı günlərimizdə İrəvandakı milli teatrımıza rəhbərlik etmiş, onun uğurlarında önəmli payı olmuş, erməni haqsızlıqları ilə sıx-sıx üzləşmiş Hidayətin öz ocağından perik düşmüş kollektivlə yaradıcılıq əlaqələrini ardıcıl davam etdirməsi, göründüyü kimi, həm teatra, həm də yazıçıya yeni sənət sevincləri gətirir. Teatr öz mövcudluğunu davam etdirməsi ilə İrəvanın itirilmiş xallarını qaytarıb yerinə qoyur, düşmənin mənəvi məğlubiyyətini dərinləşdirir.

***Tahir AYDINOĞLU,***
***(Foto Rafiq SALMANOVUNDUR),***
***"Xalq qəzeti"***